

Təbiətcə insan daim narahatdır. Həmişə sabaha can atır, qazandığı müvəffəqiyyət onu tam qane etmir, daha böyük uğurlara imza atmağa çalışır. İşinə ürəkdən bağlı, məsuliyyət hissi güclü olan adamlar üçün bu xüsusilə xarakterikdir. Bu mənada, keçən ilin hesabını apararkən istər-istəməz fərəhlənməli, qürur duymalı oluruq.

**2009-cu ili xatırlayarkən**

# Fərəh doğuran uğurlar

**Bəri başdan deyək ki, 2009-cu il ölkəmiz üçün kifayət qədər uğurlu və nailiyyətlərlə zəngin hesabat dövrü kimi yadda qaldı. Qlobal iqtisadi və maliyyə böhranının hələ də sengiməməsinə baxmayaraq respublikamızda həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində və əvvəlki illərdə yaradılmış möhkəm iqtisadi baza hesabına ötən il Azərbaycan iqtisadiyyatının dinamik inkişafının davamı, iqtisadi islahatların uğurla həyata keçirilməsi və əhalinin sosial rifahının daha da yaxşılaşması ilə əlamətdar oldu.**

2008-ci ildən başlanan beynəlxalq maliyyə böhranı 2009-cu il boyu davam etdi. Böhranın hələ ilkin çağlarında beynəlxalq ekspertlər bildirirdilər ki, özünün iqtisadi təhlükəsizliyinə nail olmuş dövlətlər böhrandan minimum itki ilə çıxa biləcəklər. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatına inteqrasiya şəraitində inkişaf etdiyindən qlobal iqtisadi böhranın ölkəmizə də təsiri qaçılmaz idi. Böhran ciddi sınağa çəksə də, Azərbaycan Prezidentinin tapşırığı və göstərişləri ilə həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə onun mənfi təsirləri dərindən hiss olunmadı.

Təsadüfi deyildir ki, Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının hesabatlarında Azərbaycanın 2009-cu il üçün iqtisadi inkişaf perspektivləri ilə yanaşı, dünya maliyyə böhranının təsirlərinin qarşısının alınması ilə bağlı gördüyü tədbirlər müsbət qiymətləndirildi.

Göründüyü kimi, hesabat ilində mürəkkəb xarici risklər və çağırışlar şəraitində Azərbaycan özünün iqtisadi tarazlığını qorudu, yüksək dayanıqlılıq və sabitlik nümayiş etdirdi, ÜDM-in artımında, xüsusən qeyri-neft sektorunda yüksək artıma nail oldu. Beləliklə, ötən il dünya tarixində maliyyə və iqtisadi böhran dövrü kimi yadda qalsa da, Azərbaycan üçün növbəti uğurlu dövr oldu.

Əvvəllər olduğu kimi yenə də vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, əhalinin aztəminatlı təbəqələrinə kömək göstərilməsi, yoxsulluğun aradan qaldırılması Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətlərindən biri oldu.

Son illərin reallıqları da ondan ibarət oldu ki, ölkəmizin dinamik iqtisadi inkişafı sosial sahəyə təsirsiz ötüşmədi. İqtisadiyyatda həyata keçirilən köklü dəyişikliklər makroiqtisadi sabitliyi təmin etməklə bərabər, əhalinin sosial müdafiəsini gücləndirmək üçün möhkəm zəmin yaratdı.

Artıq iqtisadi inkişafın, uğurla həyata keçirilən yeni neft strategiyasının elə bir mərhələsini yaşayırıq ki, indi nəinki problemlərin həlli, o cümlədən yeni sosial layihələrin həyata keçirilməsi üçün dövlətin kifayət qədər maliyyə imkanları vardır.

**Prezident İlham Əliyevin sosial sahəyə diqqət və qayğısının nəticəsidir ki, son illərdə dövlət büdcəsi təsdiq olunarkən sosialyönümlülük prioritet kimi qalır. Məhz dövlət başçısının qətiyyətli siyasəti sayəsində ölkədə yoxsulluğun səviyyəsi son altı ildə bir neçə dəfə aşağı düşüb. Mütəmadi olaraq əməkhaqlarının və təqaüdlərin artırılması, qaçqınlara, məcburi köçkünlərə, şəhid ailələrinə və müharibə veteranlarına verilən müavinətlərin çoxalması dövlətin öz vətəndaşının sosial qayğılarına diqqətinin təzahürüdür.**

Ötən il qlobal böhranın tüğyan etməsinə baxmayaraq ölkəmizdə əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində işlər davam etdirildi. Böhran Azərbaycanda əhalinin sosial şəraitində demək olar ki, hiss olunmadı. Üstəlik bir sıra məhsulların qiymətinin aşağı düşməsi əhalinin alıcılıq qabiliyyətinin artmasına mühüm təsir göstərdi.

Əhalinin sosial durumunun yaxşılaşması təbii ki, ölkədə həm sabitliyə, həm də davamlı inkişafa təminatdır. Sosial problemlərin yoluna qoyulması üçün çoxşaxəli tədbirlərin həyata keçirilməsi, bütün kateqoriyalardan olan vətəndaşların rifahının yüksəlməsi respublika ictimaiyyəti tərəfindən də rəğbətlə qarşılanır.



Dövlətimizin uğurlu iqtisadi siyasəti - sahibkarlığın təşviq edilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, iqtisadiyyata yatırılan sərmayələrin daha da artması növbəti illərdə ÜDM-də sənaye məhsulunun həcminin daha da artacağını söyləməyə əsas verir.

Bu gün qarşıya qoyulan əsas məqsədlərdən biri iqtisadi inkişafın və maliyyə artımının verdiyi imkanlardan bəhrələnərək infrastrukturun inkişaf etdirilməsidir. Çünki lazımi səviyyədə infrastruktur olmadan kompleks inkişafla bağlı uzaq hədəflərə çatmaq mümkün deyil. Sosial-iqtisadi, mədəni və humanitar inkişafı şərtləndirən əsas amillərdən biri də məhz normal infrastrukturun yaradılmasıdır. Əgər elektrik enerjisinin verilişi lazımi səviyyədə olmasa, yollar, limanlar müasir standartlara cavab verməsə, kommunal və bank xidmətlərinin səviyyəsi yüksəlməsə, otellər, xəstəxana və idman qurğuları olmasa hansı inkişafdan danışmaq olar?

Bu baxımdan, xüsusi vurğulamalıyıq ki, qlobal böhrana qarşı qabaqlayıcı tədbirlərin həyata keçirilməsi nəticəsində, ötən il nəzərdə tutulmuş infrastruktur və sosial layihələr də uğurla yerinə yetirildi.

Nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi günümüzün aktual məsələlərindən biri oldu. Nəzərə alsaq ki, Azərbaycanda nəqliyyat vasitələrinin sayı sürətlə artır və ölkəmiz bir sıra iri beynəlxalq nəqliy-



yat dəhlizlərinin qovşağında yerləşir, onda nəqliyyat infrastrukturunun inkişaf etdirilməsinin zəruriliyi daha aydın duyular. Artıq bir neçə ildir ki, bu sferada başlanan mühüm layihələr ötən il də uğurla davam etdirildi.

Müasir standartlara cavab verən xəstəxanaların, müalicə-diaqnostika mərkəzlərinin, poliklinikaların tikilməsi, yararsız vəziyyətdə olanların təmiri dövlətimizin məqsədyönlü sosial siyasətinin göstəricisidir.

Ötən il sosial infrastruktur layihələrinin icrasında geriləmə müşahidə olunmadı, təhsil, idman və səhiyyə müəssisələrinin tikintisi yüksək dinamizmlə davam etdirildi.

Rəqəmlərin dililə desək 2009-cu ildə Azərbaycanda 64 məktəb tikildi, 59 səhiyyə müəssisəsi inşa olundu və təmir edildi. Beş böyük olimpiya kompleksi istifadəyə verildi. Bu onu göstərir ki, hətta maliyyə imkanlarımız azalanda da dövlətimiz sosial infrastrukturun inkişafı üçün lazımi tədbirlər görür, müvafiq maliyyə vəsaiti ayırır...

**Keçən il yalnız Mədəniyyət və Turizm Nazirliyinə müəyyən sahələrin inkişafı məqsədilə 13,180 milyon manat vəsait ayrılması buna bariz nümunədir. Fərəh hissilə qeyd etməliyik ki, möhtərəm prezidentimizin mədəniyyətin inkişafına verdiyi yetərli dəstək nəticəsində mədəniyyət ocaqlarının siması tamamilə dəyişərək yeni görkəm almış, məzmunca çağdaş keyfiyyətlər qazanmışdır.**

Əsaslı təmir və bərpadan sonra fəaliyyətlərində bir dönüş duyulan Heydər Əliyev Sarayının, S.Vurğun adına Rus Dram, A.Şaiq adına Kukla, Gənc Tamaşaçılar teatrlarının, istifadəyə verilməsi ictimaiyyət tərəfindən sonsuz maraqla qarşılanan Beynəlxalq Muğam Mərkəzinin timsalında bunu daha aydın görmək olur. Bu xoş ənənə hazırda da davam etdirilir. Milli Dram Teatrı və "Nizami" kinoteatrı sürətlə bərpa olunur, yeni Xalça və Xalq Tətbiqi Sənəti muzeyi tikilir.

Hesabat ilində nazirlik sistemində fəaliyyət göstərən 27 dövlət teatrı və 10 konsert müəssisəsi, 4000-dən çox kitabxana, 33 dövlət, 1 bədii sərgi salonu, 200-dən artıq muzey, 237 musiqi məktəbi və 3000-ə yaxın klub müəssisəsinin işində bir fəallıq duyulması da razılıq doğurur.

Ukraynada, Türkmənistanda, Gürcüstanda, Tatarıstanda Azərbaycan mədəniyyət günləri, Azərbaycanda Rusiya Federasiyası, Qətər dövləti, Mərakeş krallığı, Küveyt dövləti və İordaniya Haşimilər krallığının mədəniyyət günləri keçirilmişdir.

2009-cu il Azərbaycanın mədəni həyatında "Bakı İslam Mədəniyyətinin Paytaxtı" tədbirlər silsiləsi ilə əlamətdar olmuşdur. Böyük kulturoloji-mədəni layihələrin gerçəkləşməsi sayəsində xalqımızın bir sıra mili-mədəni dəyərləri beynəlxalq ictimaiyyət arasında geniş təbliğ edilmiş, ayrı-ayrı incəsənət növlərinin, qeyri-maddi mədəni sərvətlərin hüdudsuz estetik imkanları təsdiqini tapmışdır.

Həmişə olduğu kimi keçən il də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili, ölkənin birinci xanımı Mehriban xanım Əliyevanın həyata keçirdiyi layihələr unikallığı, dəyərliliyi, dərin məzmunu və çağdaş biçimi ilə yadda qaldı, böyük maraq doğurdu.

**Təbii ki, bir jurnal yazısında keçirilən bütün tədbirləri, o cümlədən, Beynəlxalq Muğam Festivalı, Beynəlxalq Musiqi Həftəsi, Beynəlxalq Caz Festivalı, I Beynəlxalq Bakı Kitab Sərgi-Yarmarkası, Beynəlxalq Kulinariya Müsabiqəsi və s. haqqında geniş söhbət açmaq mümkün deyil. Odur ki, zaman-zaman söhbətimizə qayıdacağıq...**

**Y.HİDAYƏTOĞLU**